**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.303**

**LƏMAN MƏMMƏDOVA*, ELŞƏN XUDİYEV***

# MİKAYIL ABDULLAYEVİN PORTRET OBRAZLARINDA XARAKTERİK XÜSUSİYYƏTLƏR VƏ PSİXOLOJİ ASPEKTLƏR

*XX əsrdə Azərbaycan gerçəkliyi və zamanın gətirdiyi böyük yeniliklər bütün digər sahələr kimi rəssamlıq sənətində də mütləq şəkildə əks olunmuşdur. Xüsusilə XX əsrin 40-50-ci illərində Azərbaycanda portret janrında çalışan rəssamların diqqətini daha çox obrazın ictimai mahiyyəti, onun fəaliyyəti, müasir quruculuqda xidmətləri cəlb edirdi. Buna görə də bu dövrdə yaradılan əsərlərin bir çoxunda mədəniyyət xadimləri, elm adamlarının portretləri böyük əksəriyyət təşkil edir. Bu baxımdan böyük sənətkar Mikayıl Abdullayevin yaradıcılığı daha maraqlıdır. İctimai fəaliyyəti, yaradıcılıq nailiyyətləri ilə Azərbaycanda məşhur simalar kimi tanınan şəxsiyyətlərin obrazları Mikayıl Abdullayev yaradıcılığında xüsusi əhəmiyyətə malik olmuşdur. Mikayıl Abdullayevin "Rəqqasə Əminə Dilbazi", "Səməd Vurğun", "Süleyman Rüstəm", "Həsən Seyidbəyli" portretləri bu qəbildən olan əsərlərdir. Bu seriyadan olan əsərlərdə insan obrazları maraqlı və rəngarəng verilmiş, obrazlarda mənəvi və zahiri gözəlliyin harmoniyası xüsusi ecazkarlıqla canlandırılmışdır.*

***Açar sözlər:*** *Mikayıl Abdullayev, XX əsr incəsənəti, portret janrı, rəngkarlıq, sənətdə bədii obraz, kolorit.*

## Giriş

Çoxobrazlılıq, yaradıcılqda çoxşaxəlik, fırça ilə bir detalda olduqca böyük ideallar təcəssüm etdirmək – bütün bunlar görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayev və onun yaradıcılığına xas olan xüsusiyyətlərdir. Mikayıl Abdullayev hər zaman yaratdığı əsərlərdə özünəməxsus üslub, ümumiləşmiş obrazda əsas ideyanın ifadəli formada təqdim edə bilmək ustalığını nümayiş etdirmişdir. Bir tək Bakı metropoliteninin "Nizami" stansiyasını bəzəyən mozaika əsərləri rəssamın obrazlar sferasının zənginliyindən, bir tabloda çoxşaxəlilik yaradabilmə qabiliyyətindən xəbər verir. Belə ki, interyeri əlvan obrazlarla bəzəyən rəssam təxəyyülünün üfüqlərini geniş açaraq, özünü mahir sənətkar kimi tanıdır. Bu silsilədən olan "Sultan Səncər və qarı" tablosu olduqca maraqlıdır. Burada at belində oturan Sultan Səncərə öz şikayətini dilə gətirən qoca qadın obrazı təsvir olunmuşdur. Sultanın laqeyd siması, onun qadının dərdinə biganəliyi, qadının şikayət dolu səsi sanki tablodan daşaraq tamaşaçının gözü önündə Nizami dühasının şah əsərinin vərəqlərini çevirir. Və sanki biz qadının şikayətini eşidirik. Tablo o qədər canlı, ecazkar yaradılmışdır ki, burada insan taleyinə olan biganəliyə nifrət etməmək mümkün deyil (1).

## Əsas məzmun

Nizami şeiriyyətinə Mikayıl Abdullayev dəfələrlə müraciət edib. Bu baxımdan onun XX əsrin 70-80-ci illərində işlədiyi və hal-hazırda Milli İncəsənət muzeyinin rəngkarlıq fondunda saxlanılan "Yeddi gözəl" poemasından olan həmin gözəllərin obrazlarını canlandırdığı tabloları olduqca ecazkardırlar. Burada hər bir gözəlin milli mənsubiyyətini vurğulamaq üçün rəssam zəngin rəng çalarlarından istifadə etmişdir. Tam yeddi tablonun əhatə edən bu silsiləyə "Şərq gözəli", "Məğrib gözəli", "Slavyan gözəli", "Hind gözəli", "Rum gözəli, "Çin gözəli", "Fars gözəli" portretləri daxil edilmişdir. Rəssamın yaratdığı gözəllərdə Nizami qələminin nidaları eşidilməkdədir (2, 3).

Mikayıl Abdullayevin portret qalareyasını "Üzeyir Hacıbəyov", "Səməd Vurğun", "Mirzə Fətəli Axundov", "Molla Pənah Vaqif", "İmadəddin Nəsimi", "Pianoçu Fərhad Bədəlbəyli" və s. bu kimi sənət əsərləri bəzəməkdədir. Bu əsərlərin hər biri yüksək bədii dəyərinə görə fərqlənir. Hər bir əsərində gözəllik axtaran rəssam olduqca maraqlı şəxsiyyətlərin obrazına müraciət edir və hər bir tablosunun qəhrəmanında gözəlliyin təcəssümünə nail olur. Bunu bəlkə də öz qəhramanını ideallaşdırmaq və ya ona hekayətçilik nöqteyi-nəzərdən yanaşma adlandırmaq olar, lakin bu daha çox sənətkarın özünün insana, onun gözəlliyinə münasibətini izah edir. Rəssam məşhur simaların obrazını yaratdığı hər bir tabloda qəhrəmanının mənəvi dünyasının üz cizgilərinin ahəngdar harmoniyasını, baxışlarının itiliyini, naturanın ifadəliyini böyük ustalıqla vermişdir. Bu portretlər arasında "Pianoçu Fərhad Bədəlbəyli" əsəri emosional təsviri, ifaçı qabiliyyətinin rəng çalarları ilə yüksək səviyyədə təqdimi ilə daha maraqlıdır. Portretdə istadadlı Azərbaycan pianoçusu Fərhad Bədəlbəylinin obrazı yaradılıb. Əsər 1977-ci ildə yaradılıb, hal-hazırda Azərbaycan Milli İncəsənət muzeyində saxlanılır. Portretdəki obraz plastik hərəkətliliyə malikdir. Əsərdə qəhraman gözlərində eynək, fortepiano qarşısında hansısa bəstəkarın əsərini ifa edərkən təsvir olunmuşdur. Bəlkə də onun barmaqlarından

Şopenin, bəlkə də Raxmaninovun romantik və bəlkə də Bethovenin üsyankar musiqisi süzülür. Obraz öz sevimli fəaliyyətinə o qədər aludə olub ki, sanki onu bu aləmdən qoparmaq heç bir zaman mümkün olmayacaq. Obrazın paltarı altından görünən əzələləri, bədənin simmetrik quruluşu gənclik ehtirasından xəbər verir. Onun əynindəki köynək tablonun fon rəngi ilə əsrarəngiz harmoniya yaradır. Qəhrəmanın baxışları klaviaturadakı pillələrə zillənib. Onun uzun barmaqları istənilən mürəkkəb akkordu və ya ritmik fiqurasiyanı məharətlə ifa edə biləcəyini gözlərönünə qoyur.



Mikayıl Abdullayev. Rəqqasə Əminə Dilbazinin portreti. 1954

"Manqabaşçısı Rəxşəndə", "Yüz yaşlı usta" portretlərində isə Mikayıl Abdullayev əmək adamlarının, zəhmətkeş insanların obrazını yaradıb. O, bu vasitə ilə insan zəhmətinə olan bir mənalı müsbət münasibətini izah edib (4).

Mikayıl Abdullayevin özünəməxsus parlaq rəssamlıq üslubu var, onun hər bir tablosu individualdır. Bu tablolarda rəng çalarlarında uzun illər və diqqətlə aparılan axtarışların nəticəsi olaraq obrazın bir vəhdətdətəsviri və kompozisiyanın orijinallığı ortaya çıxır. İllər boyu əldə olunan böyük təcrübə və obraza professional yanaşma hər dəfə rəssama kömək edərək yaratdığı portretdə onun ümumi ahəngdarlığa nail olmasına imkan yaratmışdır (5). Maraqlı cəhət budur ki, müxtəlif ölkələri səyahətlər zamanı rəssam ziyarət etdiyi hər bir ölkənin vətəndaşlarının obrazını maraqlı dəsti-xətti ilə canlandırıb. Mikayıl Abdullayevin Hindistana səfəri zamanı bu ölkənin müxtəlif təbəqələrindən olan insanlarının portretlərini çəkməsi yaradıcılıq baxımından vahid süjet xəttinə malik silsilə meydana gətirib. 1956-1971-ci illər Hindistan səyahətinin nəticəsi olaraq üzə çıxan və "Hindistan silsiləsi" adlanan həmin əsərlər C. Nehru adına Beynəlxalq mükafata layiq görülüb. Silsilədə "Kəlküttəli tələbə qızlar", "Racəstan qadınları", "Caypur qadınları" "Benqal qızları" tabloları zəngin rəng çalarları, hind xalqına məxsus geyim rəngarəngliyi, əlvan bəzək aksesuarları ilə yadda qalan əsərlərdir.

"Caypur qadınları" tablosunda təsvir edilən obrazların simasında rəssam valehedici incəliklər kəşf edir. Burada təsvir olunan iki qadının geyimlərində bəlkə də ilk baxışda bayağı görünən əlvanlıq, zinət əşyalarındakı milli xüsusiyyətlər əsl hind qadınının ümumiləşmiş obrazını yaradır. Portretdən boylanan qadınların üz cizgiləri aydın və parlaqdır. Bu simada təcəssüm olunan mənəvi dəyərlər hiss və duyğuların emosionallığına dəlalət edir. Portretin fonu açıq rəng çalarlarına malikdir. Bu qadınların simasının daha qabarıq üzə çıxmasına imkan yaradır.

Hindistan səyyahəti zamanı Mikayıl Abdullayev tərəfindən çəkilən portretlər arasında "İndira Qandinin portreti" hind xalqının bu tanınmış siyasət xadiminin canlı naturadan çəkilmiş şəklidir. Rəssam burada modelinin üz cizgilərini dəqiqliklə ifadə edə bilmək üçün rəng çalarlarından, işıq və kölgə oyunundan məharətlə istifadə edib. Məlum olduğu kimi İndira Qandi fiziki olaraq gözəl qadın olmamışdır. Lakin rəssam onun simasının cizgilərini gözəl yaratmaqla obraza bir məlahət, incəlik qazandırmışdır. Onun İndirası xalq qarşısında tarixi missiyası və bu missiyanı yerinə gətirə

bilmək ehtirası ilə gözəldir. Obrazın mənəviyyatının ali hissləri, vətəndaşlıq borcu, bütün bunların üz cizgilərində ifadəsi özü-özlüyündə simaya ideal gözəllik verir. Indira Qandinin özü tərəfindən yüksək dəyərləndirilən bu əsər Mikayıl Abdullayevin yaradıcılıq istedadının ən gözəl nümayiş etdirən sənət nümunələrindəndir.

Mikayıl Abdullayevin "Nəsimi" portreti dahi hurifi şairinə ucaldılmış ən əzəmətli abidələrdəndir. Nəsimi portretdə ayaqüstə, əlləri arxadan kilidlənmiş, arxalığının bir tərəfi çiynindən düşmüş vəziyyətdə təsvir olunmuşdur. Bu portretə baxdığımızda-"Kimdir Nəsimi?" sualına birbaşa cavab tapmış oluruq. Çünki Mikayıl Abdullayev rəssam gözü ilə Nəsimi dühasının böyüklüyü öz rəsm əsərində əzəmətlə canlandırmağı bacarıb. Şairin gündən yanmış siması, tutqun baxışları, üz əzələlərinin simmetrikliyi sulu boya ilə ustalıqla yaradılmışdır. Obrazın gözəl simasında onun fırtınalı mənəvi dünyasının üsyankarlığı ilə tanış olursan. Nəsiminin baxışları bir qədər yorğundur. Bu onun varlığının əsasını təşkil edən idealı uğrunda illərlə apardığı mübarizənin yorğunluğudur. O, eyni zamanda əzəmətli və vüqarlıdır. Bu vüqar hər nə qədər mübarizədən yorğun düşsə də, Nəsiminin heç bir zaman sınmayacağını, təslim olmayacağını göstərir. Obrazın bu qədər əzəmətli alınması rəssam fantaziyasının sərhədinin sonsuzluğundan xəbər verir.

Mikayıl Abdullayev "Nəsimi portreti"ndə işıqla kölgənin qarşılaşmasında əbədi sönməz obraz yaratmışdır. Obrazın arxa fonundakı göy rəng ümumilikdə portretdə zidd elementlərin ortaya çıxmasına səbəb olmuşdur. Bu ziddiyyət rəsmdə texniki cəhət deyil, daha çox şair mənəviyyatı ilə üz-üzə gələn həyat şərtləri arasında olan ziddiyyətdir. Bu da ümumi harmoniya yaradaraq, şairin dünyasının özünəməxsusluğunu gözlər önünə sərir. Portretdə rəssam Nəsimi şəxsiyyətinə aid olan xarakterik cəhətləri qabarıq şəkildə göstərməyə nail olmuşdur. Biz bu tabloda Mikayıl Abdullayevin yaradıcılıq təxəyyülündə gözəllik və onun dərk olunmasının qeyri-adiliyinin şahidi oluruq.

"Ana" mövzusu hər zaman incəsənətin müxtəlif sahələrinin müraciət etdiyi bir mövzu olmuşdur. Azərbaycan təsviri sənətində də bəlkə də elə bir sənətkar yoxdur ki, bu mövzuya mütləq müraciət etməmiş olsun. Mikayıl Abdullayevin yaratdığı "Anam portreti" də bu mövzuda olan maraqlı sənət nümunələrindəndir. Kompozisiyada vüqarlı, əzəmətli, həssas ana siması canlandırılmışdır. Onun ağ saçları, üzündəki qırışlar yaşadığı həyatın izlərini daşıyır. O, başına ağ şal örtmüşdür. Portretdəki rəng çalarları forma aydınlığı ilə bir vəhdət yaradır. Ananın duruşu, onun uzaqlara dikilən gözləri özündə alicənablıq, üstün zəka, kövrəklik, mərhəmət əks etdirir. Əsərdə həllini tapan ana obrazında müqəddəsliyin tərənnümü xüsusilə diqqətə layiqdir. Rəssamın "Ana"sı bütün dünyada səcdə edilən pak, ülvi analıq hisslərini daşıyıcısı olan qadınların ümumiləşmiş obrazıdır.

**Nəticə**

Azərbaycan sənətkarlarının əsərlərində müasir zamanda da gözəl sima və mənəvi zənginliklərə malik insanların obrazı əsas mövzulardan biridir. Bu insanların yaşadığı dövrün dinamik inkişafı fonunda təsvir edilməsi, onların malik olduğu mənəvi dəyərlərin tablolarda təcəssüm etdirilməsi müasir dövrdə gözəllik anlayışının qavranılması və dərki probleminə özünəməxsus şəkildə işıq salır.

## ƏDƏBİYYAT


1. "Sərvət" albomlar silsiləsi. Mikayıl Abdullayev. Şərq-Qərb, Bakı, 2013
2. Allahverdiyeva H. Naxçıvan teatrının səhnəqrafiyası (1882-2016). Monoqrafiya, Əcəmi, Naxçıvan, 2022, s. 236
3. Məmmədova L., Əliyev H. Təsviri sənət nəzəriyyəsi. Dərs vəsaiti, Qeyrət, Naxçıvan, 2017, s. 245
4. Məmmədova L. Azərbaycan rəssamlıq sənətində portret janrının rolu və əhəmiyyəti. Elmi əsərlər №1 (57), Naxçıvan Dövlət Universiteti, Qeyrət, Naxçıvan, 2014
5. Məmmədova L., Əliyev H. Heykəltəraşlıq və rəngkarlıqda insan gözəlliyinin təcəssümü. Monoqrafiya, Qeyrət, Naxçıvan, 2017, s. 301



***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: lemanmamedovaa@mail.ru***
****Beynəlxalq Dil Mərkəzi***
***E-mail: elsen.hudiyev@gmail.com***

**Laman Mamedova, Elshen Khudiyev**

## CHARACTERISTIC FEATURES AND PSYCHOLOGICAL ASPECTS OF PORTRAIT IMAGES OF MIKAIL ABDULLAYEV

The article shows the main trends in the portrait genre in the work of the outstanding artist-painter, graphic artist, and monumentalist Mikail Abdullayev. Lyrical themes prevail in the artist's work. The work of the great artist was associated with literature. He created portraits of many writers and artists. Among them are such works as "Uzeyir Hajibeyov", "Samed Vurgun", "İmameddin Nasimi", "Mirza Fatali Akhundov", "Pianist Farhad Badalbeyli" and others. The artist's portraits are distinguished by high ideological meaning. His portraits not only depict a person's individuality but also express the individuality of the author's artistic personality. The article also analyzes some of the works of Mikail Abdullayev: characteristic features and psychological aspects of portrait images of the great artist.

**Keywords:** *Mikayıl Abdullayev, 20$^{th}$ century art, artist, portrait genre, painting, artistic image in art, color.*

**Ламан Мамедова, Эльшан Худиев**

## ХАРАКТЕРНЫЕ ЧЕРТЫ И ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПОРТРЕТНЫХ ОБРАЗОВ МИКАИЛА АБДУЛЛАЕВА

В статье показаны основные тенденции портретного жанра в творчестве выдающегося художника-живописца, графика, монументалиста Микаила Абдуллаева. В творчестве художника преобладают лирические темы. Творчество великого художника было связано с литературой. Он создал портреты многих писателей, деятелей искусства. Среди них такие работы, как «Узеир Гаджибеков», «Самед Вургун», «Имамеддин Насими», «Мирза Фатали Ахундов», «Пианист Фархад Бадалбейли» и др. Портреты художника отличаются высоким идейным смыслом. Его портреты не только изображают индивидуальность человека, но и выражают индивидуальность художественной личности автора. В статье также проанализированы некоторые работы Микаила Абдуллаева: характерные черты и психологические аспекты портретных образов великого художника.

**Ключевые слова:** *Микаил Абдуллаев, искусство XX века, художник, портретный жанр, живопись, художественный образ в искусстве, колорит.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**